# MƏNALI ÖMÜR YOLU

**Dünyaya göz açan hər bir kəsin, öz yolu, öz cığırı olur. Bu da əzəli məlum, sonu Tanrının qismətindən asılı ömür yoludur. Deyirlər, öz dünyasında olan insanın söz və əməl dünyası saleh olur. Bu yolu şərəflə, ləqayətlə, inam və imanla addımlayan məmur xanım Fiduma Hüseynova haqqında qaynaqlanan maraqlı fikirləri, söhbətləri məmnuniyyətlə qələmə alıb oxucularımıza çatdırmağı özümə borc bildim.**

Fiduma xanımla görüşməli oldum. Güləruz və mehriban xanıma gəlişimin məqsədini bildirdim: gülümsədi, nurlu siması işıqlandı. Səmimi söhbət zamanı Fiduma xanım ötüb keçən uzun illərin arxasından boylanan uşaqlıq, yeniyetməlik, gənclik çağlarını xatırlayır, keçdiyi ömür yolunda qazandığı uğurlardan ötəri də olsa bəhs edir.

Başı qarlı dağları, buz kimi, diş göynədən bulaqları, zəngin təbiəti ilə insanları məftun edən qədim Naxçıvan diyarında dünyaya göz açıb Fiduma Hüseynova.

Bu yerlərin insanları da dağları kimi vüqarlı, suları kimi şəffaf, havası kimi saf olurlar – desəm heç də yanılmaram.

Ailədə 6 uşaq olub. Ailənin başçısı Məmmədəli ata və Rəhilə ananın qayğıkeşliyi sayəsində övladlar böyüyüb boya-başa çatıb. Ali təhsil alıblar. Gənc Fiduma da orta məktəbi 1976-cı ildə Naxçıvanda bitirib, Bakıya gəlib. Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutu (indiki Slavyan Universitetinin) rus-dili ədəbiyyatı fakültəsinə daxil olub. Tez bir vaxtda institut mühitinin ab-havası ilə nəfəs almağa başlayıb. Təhsil illərində institutun ictimai həyatında yaxından iştirak edib. Bu təhsil ocağının ən hazırlıqlı və istedadlı tələbələrindən sayılan gənc Fiduma institutun komsomol təşkilatının üzvü seçilir.

**– Fiduma xanım, ali məktəbə daxil olmaqla həm də əmək fəaliyyətinə qədəm qoydunuz, – sizinlə daha yaxından tanış olmaq istərdik....**

– Hələ tələbəlik illərində əyani təhsil almaqla yanaşı, institut komsomol komitəsində rəsmi fəaliyyət göstərirdim. Məni İnstitut üzrə tədris, tərbiyə komissiyasının sədri təyin etdilər. Bir müddət sonra İnstitut üzrə komsomol katibinin müavini, sonra da komsomolun katibi seçildim. Ali məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra, kafedrada dərs deməli oldum. Heç gözləmədiyim halda 1983-cü ildə Nəsimi Rayon Komsomol Komitəsinə 3-cü katib vəzifəsinə təyin etdilər.

Təbii ki, artıq 1988-89-cu illərdən başlayan məlum hadisələr hamımıza bəllidir. Azərbaycanın tərkib hissəsi olan Qarabağa qarşı 1988-ci ildə başlanan separatçılıq hərəkatı, işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana xəyanət idi. Elə ovaxtkı siyasi burulğanlar sovet sisteminin süquta uğramasına, sovet strukturlarının ləğv olunmasına gətirib çıxardı. Mən 1989-cu ildə Nəsimi rayon 16 N-li məktəbə direktor təyin olundum. O illər Azərbaycanın qorxunc fəlakətlərlə üzləşdiyi bir il idi. Məktəbin direktoru kimi fəaliyyətə başladığım ilk gündən nəzarətimə götürdüyüm ən vacib məsələ məktəbdə nizam-intizamın gücləndirilməsi, hər bir kəs tərəfindən bu qaydalara ciddi əməl edilməsi, məsuliyyət hissinin artırılması oldu. Məqsədim cəmiyyət üçün mühüm olan keyfiyyət göstəricilərinə cavab verən təhsil prosesinin qurulması, tədrisin keyfiyyətinin yüksəldilməsi, müəllimlər və şagirdlər arasında işgüzar münasibətlərin yaranması, məktəbin yüksək peşəkarlıq səviyyəsinə malik olan müəssisə kimi obrazının formalaşması idi.

– Direktor olmaq olar, – bir şərtlə peşəkar, yaradıcı müəllim heyəti yaratmaqla müasir təhsilimizin inkişafına öz töhfələrini verməyi bacarasan.

Bu gərgin işlərin sayəsində mən 1995-ci ildə Suraxanı rayon təhsil şöbəsinin müdiri vəzifəsinə təyin olundum. O, zaman Suraxanı rayonunda sosial-iqtisadi vəziyyət, rayonun görkəmi o qədər də xoşagəlimli deyildi. Rayonu natəmizlik götürüb gedirdi. Deməli, təmizliyə birbaşa cavabdeh olan təşkilatların işindən söhbət belə gedə bilməzdi. O, zaman rayona icra başçısı təyin olunmuş H.Abutalıbovun rəhbərliyi sayəsində, demək olar ki, az müddət ərzində rayonda XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə çox böyük abadlıq, quruculuq, təmizlik işləri həyata keçirildi: Az zaman kəsiyində Azərbaycanda ən böyük göygünbəzi olan Heydər Məscidi, Heydər Parkı və sair ürəkaçan tikililər salındı. Heydər Bulağı kompleksinin açılışında Heydər Əliyev görülən işləri nəzərə alaraq demişdi: "Mən xüsusi sərəncam verəcəyəm. Suraxanı Rayon İcra Hakimiyyəti başçısının, rəhbərliyinin və müəssisələrinin təcrübəsinin respublikanın bütün rayonlarında geniş yayılmasını tələb edəcəyəm, icra hakimiyyətləri və şəhər icra hakimiyyəti başçılarından tələb edəcəyəm ki, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı kimi işləsinlər".

**– Təhsil hər bir dövlətin, ölkənin cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir! "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz !". Bu sözlər məhz ulu öndərimiz Azərbaycanın ümummilli lideri Heydər Əliyevə məxsusdur.**

– Bəli, bu gün təhsilimizin uğurları danılmazdır. Bünövrəsi ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti, ağlı, dərin zəkası hesabına yüksələn ölkəmiz bu gün də uğurlu, layiqli yolla inkişaf edir. Heydər Əliyev irsi onun həyat və fəaliyyəti xalqımızın ən dəyərli səhifələridir. Bu tarixi şəxsiyyətin ideyalarından gələcək nəsil hələ çox, yüzilliklər boyu bəhrələnəcəklər.

Suraxanı Rayon Təhsil Şöbəsinin müdiri olduğum zamanda bir pedaqoq, müəllim, məmur kimi üzərimə düşən vəzifəni şərəflə, ləyaqətlə yerinə yetirməyə çalışdım. Bəzi məktəblərdə günün tələblərinə uyğun abadlıq işlərinin, fənn kabinələrinin, laboratoriyaların yenilənməsi, eləcə də kadr, müəllim heyətinin iş keyfiyyəti ilə yanaşı, təşkilatçılığı da gündəmdə saxlamalı idim.

Rəhbərlik etmək müəyyən mənada təşkil etmək deməkdir. Öhdəsində neçə min sayda şagird kollektivi olan hər bir məktəbin sinif rəhbərləri işgüzar, təşəbbüskar olmalıdır. Onlar şagird kollektivi qarşısında daim yüksək, perspektiv vəzifələri qoymağı bacarmalıdır. Bir sözlə, rayon təhsil şöbəsinin müdiri olduğum müddətdə şagirdlərin və müəllimlərin bilik səviyyəsinin artırılmasında bir çox tədbirlər həyata keçirməli oldum.

Məlum olduğu kimi, qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, lider olması, təhsil alması olduqca vacibdir. Əks təqdirdə qadınların idarəetmədə çalışması mümkün deyil. Ümummilli liderimiz Heydər Əliyev qadınlar haqqında çox müdrik fikir söyləmişdir: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar. Mən Azərbaycan qadınlarının dövlət işində də fəaliyyətini yüksək qiymətləndirirəm. Bu bir tərəfdən Azərbaycan qadınlarının fəallığıdır, ikinci tərəfdən də Azərbaycanda qadınlara öz istedadlarını bilik və bacarıqlarını həyata keçirmək üçün, realizə etmək üçün yaranan imkanların nəticəsidir".

Taleyimdə ümummilli liderimiz Heydər Əliyevin çox böyük rolu olub. Ulu öndərimiz 2001-ci ildə məni bir neçə dəqiqəliyə qəbul edib, söhbət edib, öz tövsiyələrini verərək məni Bakı Şəhəri İcra Hakimiyyəti başçısının müavini təyin etdi.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov başçı təyin olunan zamanda paytaxt Bakının görkəmi nə vəziyyətdə idi?

Paytaxtda hər addımbaşı qanunsuz fəaliyyət göstərən kiçik-kiçik köşklər, qanunsuz tikintilər, natəmizliklər, küçə satışları baş alıb gedirdi.

Şəhərdə ötən ağır günlərdən çox qəribə bir ab-hava yaranmışdı. Paytaxt şəhər siması alması üçün natəmizlikdən qurtulmalı idi. Çünki mədəniyyət təmizlikdən, abadlıqdan, yoldan başlayır. Rəhbər işçiyə vəzifəsini yerinə yetirmək üçün imkan yaradılırsa, o, vəzifəsini asanlıqla yerinə yetirə bilir.

Ulu öndərimiz Heydər Əliyev məni 2003-cü ildə Binəqədi rayonuna icra başçısı təyin edəndə bu sözləri demişdi: "Binəqədi rayonunda sosial vəziyyət ağırdır, mən düşünürəm ki, sən sosial vəziyyəti yaxşılaşdırarsan". Mən 1 il 9 ay Binəqədi rayonunda çalışdım. Ulu öndərimizin mənə etdiyi tövsiyələr indi də qulağımda səslənir.

Təəssüflər olsun ki, 2003-cü il Azərbaycan xalqı üçün çox ağır bir il oldu. Böyük dövlət başçısı, Azərbaycanı ağır bəlalardan qurtarmış böyük siyasətçi, dövlət xadimi, əvəzsiz şəxsiyyət Heydər Əliyev dünyasını dəyişdi.

Milyonlarla insanın parlaq gələcəyinə işıq saçan əbədiyaşar liderimizin, ulu öndərimizin ideyaları bu gün də cəmiyyətin inkişafında bizə kömək edir, dönə-dönə istinad etdiyimiz onun siyasi baxışlarıdır, desəm heç də yanılmaram.

İlham Əliyevin hakimiyyətə gəlməsi, ümummilli liderimiz Heydər Əliyevin layiqli, ümumbəşəri keyfiyyətlərə malik siyasi kursunu davam etdirməsi insanlara bir rahatlıq gətirdi.

Mən dahi şəxsiyyətin qəbulunda olmuşam. O, dəqiqələri xatırlayarkən öz-özümə deyirəm: – İlahi, şükürlər olsun ki, sən bu dəqiqələri mənə qismət etdin. Bu günə qədər olan fəaliyyətimdə ən uğurlu zirvə nöqtəsi odur ki, fəaliyyətimin ən uğurlu məqamları bilavasitə onun xeyir-duası, imzası ilə olub. Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini və Binəqədi rayonuna icra başçısı təyin olunmağım, məhz ulu öndərimiz Heydər Əliyevin xeyir-duası ilə olub. Bunu mən heç vaxt unutmaram. Ömrümün bu vaxtında onu deyə bilərəm ki, mənə tapşırılan işlərin öhdəsindən gələ bilməyim, fəaliyyətim nəhəng bir şəxsiyyətin diqqətində, nəzərində olubdur. Dahi bir şəxsiyyət olan Heydər Əliyev, görünür, ona görə də özünün bu qərarını verib. Çünki Heydər Əliyevin təsadüfi qərarları olmayıb.

Bu gün biz ictimai-siyasi sabitlik hökm sürən, parlaq gələcəyi olan bir cəmiyyətdə yaşayırıq.

2003-cü ildə Binəqədi Rayonu İcra Hakimiyyətinin başçısı kimi fəaliyyətə başladım. Binəqədi rayonu müxalifətin cəmləşmiş bir məkanı idi. Hətta bir zamanlar icra hakimiyyətinin binasında müxalifət partiyasının qərargahı fəaliyyət göstərirdi. Çox mürəkkəb bir ab-havalı rayon idi. Orada eləbelə tədbirlər həyata keçirmək, işlər görmək, insanların ruhunu təmizləmək o qədər də asan məsələ deyildi. Rayonda işlədiyim müddətdə yalnız və yalnız ümummilli liderimiz Heydər Əliyevin tapşırığı və tövsiyələri ilə işləyirdim. Bütün əmək fəaliyyətimi Heydər Əliyev ideyalarına istinadən qurmuşdum. Binəqədi rayonunda işlədiyim müddətdə nə bacardımsa, həyata keçirməyə çalışdım. Əlbəttə rayon çox dağınıq bir vəziyyətdə idi. Təbii, məndən əvvəlki, rəhbərlərin də rayon üçün öz töhfələri olub. Rəhbərlik etdiyim dövrdə bir sıra layihələr, o cümlədən yol layihəsi, səhiyyə müəssisələrində bərpa-abadlıq işləri həyata keçirməli oldum.

Qədim tarixi olan Gəncə, Salyan, Quba, Qusar, Xaçmaz artıq beynəlxalq turizm mərkəzinə çevrilmiş, Qəbələ isə qüdrətli və sosial inkişaf yolunda mübarizənin yenilməz qalasına çevrilib — desəm heç də yanılmaram. Azərbaycanın bütün regionları inkişafın yeni mərhələsini yaşayır. Bu inkişafın təməlində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasət durur.

Müasir dünyada hər bir ölkənin inkişafı həmin ölkənin sosial-iqtisadi səviyyəsi ilə ölçülür. Ölkəmizdə son illərdə həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini inamla, sürətlə inkişaf etdirməkdədir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini də başlıca istiqamət olaraq seçmişdir.



Prezident İlham Əliyevin Azərbaycanın inkişafına, yaxşılaşmasına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ölkədə təhsil, səhiyyə, incəsənətin bütün sahələrində, eləcə də muğamlarımızın beynəlxalq səviyyədə təbliğində həyata keçirdiyi bu fəaliyyət proqramı öz nadirliyi ilə seçilməkdədir. Bu gün fondun dövlət səviyyəsində həyata keçirdiyi insanlara qayğı ən yüksək səviyyədədir. Fondun həyata keçirdiyi tədbirlər Azərbaycan xalqının xoşbəxtliyi naminədir.

Cənab Prezident İlham Əliyevin dövlətçilik bacarığı, rəhbərlik qabiliyyəti sayəsində vətənimiz daha da inkişaf edəcək, Respublikamızın müstəqilliyi və suverenliyi daha da möhkəmlənəcək, ölkəmiz gündən-günə varlanacaq, vətəndaşlarımız daha firavan yaşayacaqlar.

Bu gün də mən Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini kimi fəaliyyətimi davam etdirirəm.

**– Gərgin iş qrafiki ilə çalışan xanım, dövlət məmuru, ictimai xadim, həm də ana ailədə övladları ilə məşğul olmağa vaxt tapa bilirmi?**

– İş gününün normativi yoxdur. Bilirsiz, hər günün özünəməxsus vəzifələri, çətinlikləri və uğurları var, tutduğum vəzifənin hər günü çətin, maraqlı, gərginlik yaradan və eyni zamanda rahatlıq gətirən anları olur.

Demək istəyirəm, ulu öndərimiz Heydər Əliyev ən mötəbər məclislərdəki çıxışlarında qadının, ananın ülviliyindən danışar, qadına, anaya hörməti, ehtiramı hər bir insanın ali vəzifəsi hesab edirdi. "Ana həyatda hər şeyin başlanğıcıdır. Ana ailənin dayağıdır. Hər bir ailənin səadəti, əmin-amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən asılıdır".

Təbii ki, övladlarıma vaxt ayırmaq mənim analıq borcumdur. Bundan xüsusi zövq alıram. Bir oğlum, bir qızım var. Ali təhsillidirlər. Qızım ailəlidir. İki nəvəm var. Hər biri bir-birindən şirin və əzizdir. Sizə deyim bütün yorğunluğumu nəvələrimin yanında unuduram.

Fiduma xanımı başqalarından fərqləndirən xüsusiyyətləri, tutduğu vəzifədən asılı olmayaraq həmişə diqqətəlayiq nüfuz sahibi olmasıdır. Yüksək mənəviyyata, tükənib bitməyən savada, hər bir insanın daxili aləmini ehtizaza gətirən sadəliyə malik olan Fiduma Hüseynovanın simasında nümunəvi xanım təmsil olunur.

Elə ki bu insanla həmsöhbət olursan, bulaq kimi durulursan, saflaşırsan. Ondakı ovqata sən də köklənirsən, sanki ruhuna, qəlbinə işıq düşür, nur çilənir.

Öz qüruru, təvazökarlığı, səmimiliyi ilə seçilən dövlət xadimi, ictimai xadim Fiduma Hüseynova bu gün də gənclik ehtirası, gənclik gücü ilə fəaliyyətini davam etdirir. Ona öz işlərində uğurlar arzulayırıq.

**Rəfiqə MƏSUD,**
**Kinossenarist, publisist,**
**Əməkdar mədəniyyət işçisi.**